# Qəbələ III Beynəlxalq Mürəbbə Festivalı

## *Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri Milli Məclisin deputatı Fəttah Heydərovun çıxışı*

**Hörmətli dostlar, əziz qonaqlar.**

Sizin hamınızı Azərbaycanımızın bu gözəl diyarında keçirilən növbəti Şirniyyat festivalında salamlayıram, bu bayram münasibətilə təbrik edirəm.

Bu gün sizinlə belə bir bayram abu-havasında yenidən görüşdüyüm, sizi belə şən əhval-ruhiyyədə gördüyüm üçün çox məmnunam.

Müstəqilliyinin 24-cü ilini bu yaxınlarda qeyd edəcəyimiz Azərbaycanımız bu gün dünyanın hər yerində tanınır, dünyanın diqqət mərkəzi Azərbaycana çevrilmişdir desəm, yanılmaram və siz də bunu təsdiq edərsiniz. Hazırda Azərbaycanımızda elə möhtəşəm beynəlxalq tədbirlər keçirilir ki, dünyanın inkitşaf etmiş ölkələri belə bu möhtəşəmliyin qarşısında heyrətlərini gizlədə bilmirlər.

Artıq neçə ildir ki, dünyanın əksər ölkələri problemlər içərisində yaşayır. İnkişaf etmiş qərb dövlətlərini iqtisadi böhran bürümüşdür. Həmin ölkələrdə işsizlik böyük sosial bəlaya çevrilmişdir. Yaxın və orta şərq ölkələrini vətəndaş müharibəsi, xarici müdaxilə, terror xarabaza çevirmişdir. Belə bir vaxtda ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi və iqtisadi xətlə irəliləyən Azərbaycanımız isə günü gündən yeni uğurlara nail olur. İstər iqtisadi, istərsə də siyasi sahədə çox böyük inkişaf, nailiyyətlər əldə olunub və bu proses davam edir. Azərbaycan regionda ən sabit, sakit, inkişafda olan ölkədir. Biz bu nailiyyətlərimizin əsasını qoyan ümummilli lider Heydər Əliyevi böyük ehtiramla xatırlayır və qəlbimizdə yaşadırıq.



Vaxtilə ulu öndər Qəbələdə olarkən bu təbii gözəlliklərə baxıb bu diyarı dünyanın ən gözəl məkanlarından olan İsveçrəyə bənzətmişdi. Ulu öndər qeyd etmişdir ki, Qəbələ Azərbaycanın İsveçrəsidir. Təbii ki, o vaxt ancaq təbiət gözəlliyi vardı Qəbələdə, hələ insanların əlləri ilə yaratdığı gözəllik əlavə olunmamışdı. İndi Qəbələnin təbii gözəlliyinə bax bu gün hamımızın müşahidə etdiyimiz, insanların yaratdığı gözəlliklər də əlavə olunub. Ona görə də qonaqlarımız deyir ki, müasir Qəbələ İsveçrədən də gözəldir.

Allah sənə rəhmət eləsin, ulu öndər, arzuların çin oldu. Azərbaycanımızın hər güşəsi kimi Qəbələ də gözəllikdə, inkişafda dünyanın sayılıb-seçilən məkanlarına meydan oxuyur.

Qəbələdə dünyanın hər tərəfinə səs salacaq tədbirlər keçirilir. Artıq yeddinci dəfədir ki, burada Beynəlxalq Musiqi Festivalı müvəffəqiyyətlə keçib. Bu yaxınlarda dünyanın yüzə qədər ölkəsindən olan 2000-dən çox idmançının iştirakı ilə dünya kuboku uğrunda atıcılıq yarışları da Qəbələmizdə yüksək təşkilatçılıqla keçdi. Bu gün isə Beynəlxalq Mürəbbə Festivalına toplaşmışıq. Bütün iştirakçıların üzündən məmnunluq, sevinc yağır. Mürəbbə festivalınız, bayramınız mübarək, əziz dostlar!

Bu gün Azərbaycanımızda, Qəbələmizdə əldə olunan bu uğurlar ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu müvəffəqiyyətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin qayğısının nəticəsidir. Onun yorulmaz fəaliyyətinin nəticəsidir ki, Azərbaycanımız bu gün gülüstana çevrilmişdir. İnsanların rifah halı yüksəlmişdir. Möhtərəm Prezidentimizə xalqın rifahı, vətənimizin xoşbəxt gələcəyi uğrunda fəaliyyətində yeni uğurlar arzulayırıq.

Bir daha sizin bayramınızı təbrik edirəm!

# Qəbələ tarixi anlarını yaşamaqdadır

(Əvvəli 2-ci səhifədə).

Qeyd edək ki, Qəbələ Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublitkası Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Milli Kulinariya Mərkəzinin, Milli Kulinariya Assosasiyasının dəstəyi ilə iki il ardıcıl keçirilən Qəbələı Mürəbbə Festivalına bu il daha geniş regionlar qoşulmuş, hətta əks-sədası respublikanın sərhədlərindən kənara çıxmış, beynəlxalq status almışdır. Beləliklə, Qəbələ III Beynəlxalq Mürəbbə Festivalına respublikamızın 29 rayonunu və 6 xarici ölkəni təmsil edən kulinarların mürəbbə və digər şirniyat ustaları qaitılmışdır.

Festivalda beynəlxalq ekspertlər və 9 ölkənin Azərbaycandakı səfirləri və daimi nümayəndəliklərinin məsul işçiləri də iştirak etmişlər. Bu maraqlı tədbirdə Qəbələ Meyvə Konservi zavodunun, fındıq, üzüm emalı zavodlarının məhsulları, tətbiqi sənət əsərləri də, nümayiş etdirilirdi.



Rayonun «Gülbuta», «Gülüstan», «Zopu-zopu» folklor qruplarının iştirkı isə tədbirə xüsusi rəng qatırdı.

Festival başlamazdan əvvəl Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, festivalın təşkilat komitəsinin üzvləri, qonaqlar və digərləri Qəbələ şəhərinin mərkəzi parkında ucaldılmış dünya şöhrətli dahi şəxsiyyət Heydər Əliyevin abidəsi önünə gəlmiş, abidənin önünə tər gül və çiçək dəstələri düzmüş, ümummilli liderin xatirəsinə ehtiramlarını bildirmişlər.



Sonra buradan festivalın təşkil olunduğu məkana— Qəbələ «Karvan» Hotelin qarşısındakı məkana qədər yüyürüş keçirilmişdir. Möhtəşəm bir bayram əhval-ruhiyyəsi duyulan parkda çal-çağır sədaları ətrafa yayılırdı. Festivalda Azərbaycan milli klinariya ustalarının, peşəkarların mürəbbə və müxtəlif şirniyyatlar istehsalında əldə etdiyi nailiyyətlər, nümunələr ayrı-ayrı bölmələrdə nümayiş etdirilir, yüzlərlə,-minlərlə festival iştirakçıları bu nümunələrlə tanış olurdular. Böyük zəhmət və xüsusi diqqətlə hazırlanan müxtəlif çeşidli məhsullar hamıda xoş təəssüratlar yaradırdı.

(Ardı 4-cü səhifədə).